# Mərd oğullar

**Vətən müharibəsində otuz illik həsrətə son qoyaraq düşmən tapdağında olan torpaqlarımızın işğaldan azad edilməsində İmişli rayonunun da mərd oğulları döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəldilər. Belə oğullarımız sırasında 36 yaşında şəhidlik zirvəsinə yüksələn XTQ-nin giziri, İmişli rayonunun Otuziki kəndindən Quliyev Əli Təbriz oğlu və İmişli rayonunun Şahverdili kəndindən Bayramov Elnur Şəmsi oğlu da var.**

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Əli Quliyevin və Elnur Bayramovun şəhid olmalarının dördüncü ildönümü münasibətilə keçirilən mərasimdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının sədri Səfa Ağayev və RİH-in məsul şəxsləri ilə birlikdə şəhidlərimizin ailələrini ziyarət ediblər. Mərasim iştirakçıları əvvəlcə şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir diləyiblər. Sonra şəhidlərin keçdiyi döyüş yolundan danışılıb, onların xatirəsi ehtiramla yad edilib. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda canlarını fəda etmiş hərbçilərimizin hər birinin xatirəsinin əziz tutulduğu vurğulanıb. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusunun qazandığı qələbənin xalqımızın tarixinə qızıl hərflərlə yazıldığı bildirilib.






Qeyd olunub ki, bu şərəf tarixini öz qanları və canları ilə yazan şəhidlərin ailələrinə dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Əli Quliyev Vətən müharibəsi zamanı Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 27-də Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olub və 28 oktyabrda İmişli rayonunun Otuziki kənd qəbiristanlığında dəfn olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına hərbi hissə qarşısına qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaətə görə XTQ-nin giziri Quliyev Əli Təbriz oğlu ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bayramov Elnur Şəmsi oğlu oktyabrın 28-də Şuşa ətrafında Daşaltı uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısına qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Bayramov Elnur Şəmsi oğlu ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Ailə üzvləri şəhidlərimiz haqqında xatirələrini bölüşərək şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Respublika .- 2024.- 1 noyabr (№ 241).- S.11.